Elm .- 2026.- 20 fevral (№7).- S.7.

# Akademik İsmayıl Hacıyevin kitabı türk dilində

**Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Muhteşem binliklerin şanlı 100 yılı" adlı türk dilinə tərcümə kitabı işıq üzü görüb.**

Nəşr Türkiyə Respublikasının Sivas şəhərində fəaliyyət göstərən "Yönetim Yayınları" nəşriyyatı tərəfindən çap olunub. Kitabın tərcüməçisi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin əməkdaşı Əli Tağıyevdir.




Kitabda XX əsrin əvvəllərində Naxçıvan bölgəsinin ictimai-siyasi vəziyyəti, regiona qarşı irəli sürülən ərazi iddiaları, mürəkkəb beynəlxalq münasibətlər sistemi çərçivəsində Naxçıvanın siyasi-hüquqi statusunun müəyyənləşdirilməsi prosesi elmi əsaslarla və sistemli şəkildə təhlil olunub.

Nəşrdə Naxçıvanın muxtariyyət statusunun formalaşması, Moskva müqaviləsi və Qars müqaviləsi kontekstində hüquqi-siyasi məsələlər, bölgədə sovetləşmə prosesi, Araz-Türk Respublikasının fəaliyyəti, Cənubi Qafqazda müstəqil dövlətlərin təşəkkülü, eləcə də beynəlxalq güclərin regionla bağlı siyasəti geniş elmi təhlil obyektinə çevrilib. Müəllif tarixi hadisələri müqayisəli təhlil, mənbəşünaslıq və siyasi-hüquqi yanaşma metodları əsasında araşdıraraq Naxçıvanın dövlətçilik tarixində mühüm mərhələləri konseptual baxımdan ümumiləşdirib.

Kitab Naxçıvanın yüzillik inkişaf yolunun tarixi faktlar və elmi arqumentlər əsasında sistemləşdirilmiş şəkildə təqdim olunması baxımından həm geniş oxucu auditoriyası, həm də tədqiqatçılar üçün əhəmiyyətli mənbədir.